## Naxçıvan xatirələri

# GƏZDİM, GÖRDÜM, YAZDIM...



Sevindik NƏSİBOĞLU

*(Əvvəli ötən saylarımızda)*

Sarabski bu filmə çox baxa bilmədi. Çünki, buna ömrü yetmədi.

Qida borusu xərçənginə tutulmuş Hüseynqulu Sarabskinin səsi tutulur, heç yemək yeyib su içə bilmir. Həqiqət Rzayevanı çağırır və onun muğamını dinləyə-dinləyə 16 fevral 1945-ci ilin axşamı vəfat edir. O vaxt hələ "Arşın mal alan" təzə çəkilmişdi. Rza Təhmasib dəfn olunacağını eşidər-eşitməz çox heyfsilənir...

Halbuki, 1940-cı illərdə xəstə olarkən arzusunu deyəndə o, bu sözü də demişdi: - Rza, ola bilsin ki, bu filmə baxmağa mənim ömrüm yetmədi. Sən heyfsilənmə, filmi çək, əksinə, filmin alınacağına görə sevin. Mənim ruhum film çəkiləndə yox, sən heyfsilənməyəndə şad olacaq.

Rza Təhmasib onun sözünü yadına salır və uğurunu daha da davam etdirir.

Rza Təhmasib bundan sonra "Fətəli xan", "İncəsənət veteranı", "Qanun naminə" və s. filmlərdə rejissor və aktyor olaraq iştirak etmişdir. 1980-ci ildən sonra daha Rza Təhmasib cismən yox idi...

**Rza Təhmasib isə Atatürklə belə görüşüb.**

Rza Təhmasib 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin diplomatları haqqında məlumat topladı, bununla da, o, özünü bir anlıq onların yerinə qoydu. Və Rza o gündən onlara kömək etmək istədi. Diplomat olmaq, Qafqazda Qafqazı, Azərbaycanda Azərbaycanı bir diplomat olaraq təmsil etmək istədi.

O, bu arzusunu bir çox aktyorlara dedi. Bir aktyor yox idi ki, onun bu fikrinə uğunmasın.

-Ay səni məzəli olasan, Rza, rejissor olmaq istədin yetmədi, indi də diplomat olmaq istəyirsən? Diplomat olmaq istəsəydi, yazıq Ərəblinski elə çar idi ki...

-Yox, Rza, sənin bu arzun real olmayacaq. Heç kəs aktyorluqdan diplomat ola bilməz. Sənin heç diplomat təhsilin yoxdur. Heç aktyorluq təhsilin də yoxdur. Vallah, belə getsə, sən Ali-Osman-Padşahın hüzuruna da getmək istəyərsən.

-Sənin arzun bitmir, Rza! İstəyirsən ki, istəyirsən!

Rza bu geridə qalmış, geribaş sözlərə hayqırmaq istəyirdi. Güclü hayqırmaq... Və elə hayqırdı da... Portfelini döşünə qoydu, dəlicəsinə hayqırıb dedi:

**-MƏN DİP-LO-MAT O-LA-CA-ĞAM!**

Və elə o, daşnaklara qarşı hərəkətə keçir. Silahını - sözünü bələyərək, bütün mitinqlərdə atəşli nitq söyləyir.

1921-ci ildə isə, Sovet hakimiyyəti qurulur, AXC diplomatı ola bilməsə də, gənc Rza təhsilsiz bir şəkildə Sovet Azərbaycanını Türkiyədə təmsil etmək təklifi alır. Sevincdən qanadlanırdı yenə. Rza Təhmasib bunu niyə qəbul etməməliydi ki... Təhmasib bunun üçün hayqırmışdı hətta...

Budur, gəmi istiqamətə çatdı. Rza Təhmasib və 28 nəfər diplomat artıq Ankara şəhərindədir. O vaxt hökumətin sədri Mustafa Kamal Paşa idi. Halbuki, qarışıqlıq nəticəsində Ali-Osman-Padşahın, Vahidəddinin var olduğu belə bilinmirdi. Gənc Rza nümayəndəliyə başçılıq edən İbrahim Əbilov ilə görüşdü. Onun Naxçıvanlı olduğunu bildikdən sonra lap sevinən Əbilov gənc Rzanı özünün köməkçisi etdi. Rzanı qanadlandıran bir söz də var idi: -Məni Mustafa Kamal paşa tanıyır, sən də köməkçim olduğuna görə, səni də tanıya bilər. Hazır ol, rejissor diplomat. Atatürklə görüşəcəksən.

Yolboyu onlar danışırdılar.

-Sən şeir bilmirsən? Məsələn, Sidqidən, Nizamidən, Füzulidən...

-Olmadı ki, İbrahim bəy. Sən bunu incəsənət adamından soruşursan? Təbii ki, bilirəm. Nəyə görə soruşdun ki?

-Mustafa Kamal paşa şeiri, sazı, sözü çox sevir.

-Onda Tofiq Fikrətdən oxuyaram.

-Neyləyirsən, Rza. Mustafa Kamalın Osmanlıdan xoşu gəlmir. Nə bada ondan danışasan. Sidqidən, Nizamidən, Füzulidən oxu. O, bizim incəsənət və mədəniyyətimizi tanımalıdır.

-Nizamidən, Füzulidən, Sidqidən hamı bilir. Təzə çinarları tanımalıdır qardaşlar.

-Yaxşı, nə qərara gəldin.

-Məndə İblis pyesindən İblisin paltarı var. Teatrdan icazəylə gətirdim. Bəlkə, Mustafa Kamalın yanında İblisin monoloqunu deyim.

-Əla, Rza, afərin. Çox yaxşı seçimdir. İnanıram ki, bəyənəcək.

Vaxt çatdı. Çoxlu Azərbaycan Türkü diplomatlarımız Vətənimizi təmsil edərək, Atatürkün qəbulunda oldular. İbrahim əvvəlcədən Rzanı ürəkləndirmişdi:

-Nə badə çaşasan. Atatürkün yanında olmaq həyəcanlı və şərəflidir. Elə bil ki, Atatürkün yanında deyil, Bədayedəsən. İblis tamaşasında İblis rolunu oynayırsan.

İndi isə Atatürk gəlmişdi. Hamı ayağa qalxdı. İbrahim Əbilov çıxışını belə bitirdi: - Bilirsiniz ki, biz Türklər mədəniyyəti və incəsənəti daim inkişafda olan bir xalqıq. Azərbaycanda və xüsusən də Bakı və Naxçıvan illərində (bölgələrində) ədəbiyyat çox inkişaf edib. Bunun sübutu da Hüseyn Cavidin 1918 yılında (ilində) yazdığı "İblis" faciəsidir. İcazənizlə, həm diplomatımız, həm də teatro rejissorumuz olan Rza Təhmasib Beyzade İblisi oynayacaqdır.

-Bayılırım dramlara. Gelsin baxalım.

Və səhnədə böyük ehtişamla Rza Təhmasibdir. O, İblisin monoloqunu deyir. O qədər ehtişamlı ki, elə bil Ərəblinski yaşayır!Hamının ağzı açıq qalır. Rza Təhmasib o vaxt Atatürkü özünə heyran etmişdi.

-Bravo! Bravo! Əla, Bəyzadə. O qədər gerçəkçi idin ki, elə bil Ərafdə idim. Bu qədər gerçəkçilik olmaz. Gərək o dahi Cavidlə görüşərdim. Ona pərəstiş edirəm. Çox yaxşı yazır. Mən İblisi oxumuşam. Oradakı Elxan elə bil özüməm. Elə bil şəklimi qoyub qarşısına Elxanı yazır.

1920-ci ildəki həmin görüşdə Rza Təhmasib Atatürkün rəğbətini qazandı. O, Azərbaycanda Türkiyə səfiri seçməliydi. Səfir seçdikdən sonra Rza Təhmasibi göstərərək dedi:

-İncəsənət və mədəniyyət ölkəsinə incəsənət xadimi və şair səfir seçilməlidir, məncə. Ona görə də təqdim edirəm. Azərbaycanda Türkiyə səfiri böyük şair və diplomat Məmduh Şövkət Əsəndal olsun!

Rza Təhmasib Atatürkün istəyilə Türkiyədə qaldı. İbrahim Əbilov 1923-cü ildə ermənilərə qurban gedərkən Rza Təhmasib çox kədərləndi. Ona görə də Rza diplomatlıq arzularını bir hadisəyə görə puç etdi. Rejissorluq üçün Azərbaycana qayıtdı.

Məmduh Şövqi Əsəndal isə 1924-cü ildən sonra geri çağırıldı. Səbəb ermənilərin yaratdığı antitürkçülük ideyalarının üstün olması idi. Əsəndal İranda (1924-1926) və Əfqanıstanda (1933-1941) da Türkiyə səfiri olmuşdu. CHP katibi (1941-1945) olmuşdu. Əsəndal 1952-ci ildə Ankarada dünyasını dəyişib.

Rza Təhmasibin son filmi "Aktrisanın təbəssümü" 1974-cü ildə çəkilib. Film Nəsibə Zeynalovanın yaradıcılığına həsr olunub. R.Təhmasiblə N.Zeynalovanın birlikdə bir şəkilləri də var.

Rza Təhmasibin şərəfli yolu 14 fevral 1980-ci ildə bitir. Onun sonrakı ömrü isə hələ də davam edir.

**Məhəmməd Hüseyn Təhmasib**

İndi isə ikinci qardaşlıq zirvəsindən danışacağam. Məhəmməd Hüseyn Təhmasibdən.

Məhəmməd Hüseyn Təhmasib 12 aprel 1907-ci ildə Naxçıvan şəhərində anadan olub. Pedaqoji institutda təhsil aldıqdan sonra Universitetin dil və ədəbiyyat fakültəsində təhsil alıb.

Uşaqlıqdan şeirlər və əsərlər yazırdı. Yazdıqlarını ilk qardaşı Rza oxuyardı. Məhəmməd Hüseyn bəy çoxlu mənalı əsərlər yazdı. Onun Qaçaq Nəbi adlı pyesini KİV-də dərc ediblər, həmin pyesə eyniadlı film də çəkiblər.

Təhmasib qardaşları filmimizin inkişafında çox böyük təşəbbüs göstəriblər. 1958-ci ildə Rza Təhmasib qardaşının yeni yazdığı 2 pyesi oxuyur. Bahar və Çiçəkli dağ pyeslərini. Həmin pyeslər Rza Təhmasibə çox təsir edir. O, qardaşına söz verir ki, bu pyeslər əsasında film çəkəcək. Lakin, sonradan "Çiçəkli dağ", sonra Əlisəttar Atakişiyevə verilir.

Aktyorlar, aktrisalar hamısı bəlli olur, filmlər də çəkilir. Lakin, Rza Təhmasib filmin adı üzərində baş sındırır.

-Qardaş, ` ⌀ adı pyesə uyğun gələ bilər, amma filmə uyğun gəlmir. Filmin adı ` ⌀ olsa, camaat bu filmi cəlbedici bilməz. Deyər kinosüjetdir, baxmıram. İstəyirəm ki, adını dəyişim. Mən pyesi oxuyanda, ananın Onu bağışlamaq olarmı deməsi mənə çox təsir etdi. Ona görə də filmin adını Onu bağışlamaq olarmı etmək istəyirəm. Bu ad çox yaxşı addır. Ümid edirəm sən də bəyənərsən, tamaşaçılar da.

Eyni məsələni Əlisəttar Atakişiyev də qaldırır.

- Çiçəkli dağ da filmə uyğun gəlmir. Filmdə çiçəkli dağdan söhbət getmir. Yəni, tamaşaçı bunu əlaqəli bilməyəcək. Ona görə də, filmin adını dəyişib etmək istəyirəm . Ümid edirəm sən də bəyənərsən, tamaşaçılar da.

Beləcə, 1959-cu ildə 2 film də hazır olur. 2 film də bəyənilir. 2 film də kino tarixində unudulmaz izi ilə qalır. Təhmasib bu filmlərlə tanınır və sevilir.

Təhmasibin bundan başqa, hind nağılı Çiçəklənən arzular,Çiçəkli dağ,Rübailər aləmində kimi pyesləri çoxlu teatrlarımızda tamaşaya qoyulmuşdur.

Onun Dədə Qorqudun, Koroğlunun və Molla Nəsrəddinin tanınmasında əvəzsiz rolu olmuşdur. Əsasən, folklorşünas olmuşdur.

Rza Təhmasib 1980-ci ildə vəfat etdi. Məhəmmədhüseyn Təhmasib bu vəfatdan sarsılır və o da 1982-ci ildə xəstələnərək vəfat edir.

2010-cu ildə "Mütərcim" nəşriyyatı onun əsərlərini çap edib. Təhmasibi tanıtdığına görə "Mütərcim" nəşriyyatına təşəkkürlər edirəm.

Mən uzatmayıb məqaləmi bir bəndlə bitirirəm.



100 yaşlı cavan- Ərtoğrul Cavid

Dünyadan vaxtsız getdi, dözə bilmədi haqsızlığa. Dözə bilmədi atasının həbs edilib zindanlarda çürüdülməyinə... Yavaş-yavaş hörmətlərinin, sevinclərinin günahsız yerə əksilməyinə... Evlərinin əllərindən alınmasına... Hirsli və xudbin qonşularına... Bəs sonra nə oldu? Vərəmlədən çağ onu da vərəmlətdi... O da əksildi Cavidlərdən... Niyə onların hər şeyi əksildi? Absurd kredoları olan şəxslər baş oldular. Onlar da absurd kredolu deyildilər. Allahı tanımayan şəxslər onların canını yandırdılar.

1918-ci ildə Hüseyn və Mişkinaz evləndilər, qardaşı Əlirza Rasizadə onları Bakıya gətirdi... Ayırdı Cavidi Naxçıvanından.

Getdi Cavid, 1996-cı ildə bir də gələcəkdi...

Bir il sonra öyrədən və öyrənənin (Mişkinaz xanım təhsilsiz olduğuna görə Hüseyn bəy ona müəllimlik edirdi) bir uşağı oldu. Hüseyn Cavidin fikir qayasını Türkün qılıncı çapdı. Qayaçapan Süleyman Şah oğlu Ərtoğrol idi. Cavid götür-qoydan sonra uşağın adını Ərtoğrol qoydu. 22 oktyabr 1919-cu ildə.

Ərtoğrol Üzeyir Hacıbəyovun sinfində də təhsil almışdı.

Ərtoğrol 1943-cü ildə vətən xaininin oğlu olmasına baxmayaraq, hərbi xidmətə göndərildi. Gürcüstan batalyonuna, orduya yox.

Lakin vərəmlədən çağa, deyəsən, qurban gedəcəkdi. Atasının ölümünü belə bilmədən özü öləcəkdi. Öz həyatına qan qusaraq vərəm olduğunu öyrəndi. Elə xəstə olduğuna görə tərxis olundu. Anasını qucub qanlı yaşa boğulan gözləri 14 noyabr 1943-cü ilin soyuğunda əbədi yumuldu. 24 yaşlı cavan olaraq qaldı...

Belə qalsa da, indi vərəmlədən dünyanın vərəmli gəncinin 100 yaşı tamam olur. O, 100 yaşlı gəncdir o. Həmişə gənc olacaq, müəlliminin verdiyi tapşırığı təzə bitirib yatarkən vətən xaininnin oğlu olan gənc...

# GƏZDİM, GÖRDÜM, YAZDIM...

*(Əvvəli 1-cu səhifədə)*

. . .

***1. Nazlı Nəcəfova - Bülbülündən ayrı düşmüş qızılgül***

-

-

**Cəfər Cabbarlı.**

***Epiqraf olaraq bu misraları ona görə seçdim ki, bu məqalədə Nazlı Nəcəfovanın təkcə həyatından yox, onun canından çox sevdiyi haqqında da danışılır.***

**Sevindik Nəsiboğlu.**

Nazlı Məmmədağa qızı Nəcəfova (ilk soyadı Tahirova; 1890 - 1977) - Naxçıvanda ilk qızlar məktəbinin yaradıcısı, Azərbaycan SSR Əməkdar müəllimi. 1890-cı ildə Naxçıvanda anadan olmuşdur. Elə 1977-ci ildə Naxçıvanda da rəhmətə gedib. Onun yeri Azərbaycan qadınının təhsil tarixində çox böyükdür. O, Tağıyevin əməlini ucaldanlardan biri oldu və Bakıdakı ilk dünyəvi qızlar məktəbini Naxçıvana daşıdı. Nazlı Tahirova qardaşı, çar Rusiyasının polkovniki olan Yusif bəy Tahirovun dəstəyi ilə Tağıyevin qızlar məktəbinin ilk şagirdlərindən olmuşdur. Yusif bəy Tahirov isə sonradan Araz Türk Cümhuriyyətinin polkovniki olmuşdur. Həmin dövrün Mirzə Ələkbər Sabir, Nəcəf bəy Vəzirov, Həsən bəy Zərdabi, Əbdürrəhimbəy Haqverdiyev kimi aparıcı maarifçilərindən səkkiz il dərs almışdır. Müəllimlik şəhadətnaməsi aldıqdan sonra ailəsinin yaşadığı İrəvana qayıtmışdır. Qayıtmazdan bir qədər əvvəl gənc Nazlı xanım sonrakı illərdə onun üçün bir növ şüar olan "qadınların gözlərinin dünyaya açılması" sözlərinin müəllifi, məşhur Azərbaycan yazıçısı və ictimai xadim Cəlil Məmmədquluzadə ilə görüşmüşdür.

İrəvanda azərbaycanlı oğlanlar üçün yerli məktəbdə müsəlman qızlar üçün də ayrıca sinfin açılması Nazlı xanımın cəmiyyətdəki müsəlman qızlarını maarifləndirmək istiqamətində ilk cəhdi olmuşdur. Məktəbin müdiri Həşim bəy Nərimanovun dəstəyinə baxmayaraq, Nazlı xanım yenə də bu sinfi tikiş dərsləri adı altında gizlətməli olub. Hətta bu da cəmiyyətin ən çılğın üzvlərinin çox sərt münasibətinə səbəb olub. İlk qızlar sinfi Nazlı xanımın burada işlədiyi dörd il ərzində bir sıra zorakı hücumlara məruz qalıb.

1912-ci ildə Tahirovlar ailəsi Nazlı xanımın qızlar üçün yeni açılmış kiçik məktəbdə müəllimə işlədiyi Naxçıvana qayıtmışdır. O, Naxçıvanda əvvəlcə qızlar məktəbində müəllim, sonra pedaqoji məktəbin müdiri olur. İlk vaxtlardan məktəb radikal ruhanilərin təsiri altında olan bəzi yerli sakinləri narahat edirdi. Tez-tez Nazlı xanımın dərsləri baş tutmurdu. Hətta bəzi şagirdlərin qaçırılmasına da cəhdlər edilirdi.

Gənc müəlliməyə qarşı ciddi hədələr Nazlı xanımı məvacibinin təxminən yarısını mühafizəçilərə ödəməyə vadar etmişdi. Digər bir məşhur maarifçi qadın və Nazlı xanımın Tağıyev məktəbindən tanıdığı rəfiqəsi Ayna Sultanovanın köməyi ilə Naxçıvanda bir sıra qadın klubları, bunun ardınca isə yerli müəllimlər üçün hazırlıq məktəbində qızlar üçün xüsusi bölmə və Ordubadda qızlar məktəbi təsis olundu.

1917-ci ilin oktyabr ayında Rəşidbəy Əfəndiyev Naxçıvanda yaradılmış "qız məktəbi"nin müdiri olur. Həmin məktəbin dərs müdiri Nazlı xanım və teatrın gənc rejissoru Rza Təhmasibin köməyi ilə məktəbdə şagirdlərdən ibarət dram dərnəyi yaradılır.

1921-ci ildə onu qətlə yetirmək məqsədilə bir qrup quldur Nazlı xanımın evinə basqın edir. Xoşbəxtlikdən o, sovet orqanlarının himayəsi altında keçirilən Azərbaycanın Birinci Müəllimlər Qurultayında iştirak etmək üçün gecə ikən Bakıya yola düşmüşdü. Sovetlər tərəfindən güclü təbliğ olunan gender bərabərliyi və azadlıq ideyaları bütün ölkədə qadınların maarifləndirilməsi üçün möhkəm zəmin yaratmışdı. Lakin təlim keçmiş azərbaycanlı müəllimələrin kəskin çatışmazlığı ölkənin uzaq ərazilərində özünü, xüsusilə, qabarıq şəkildə büruzə verirdi.

"Şərq Qadını" jurnalı hamı üçün icbari təhsillə bağlı yeni siyasət kursunun həyata keçirilməsində həqiqətən carçı rolunu oynadı. Məhz bu halda Tağıyev məktəbinin məzunlarına ən böyük tələbat yarandı. Sovet orqanları tərəfindən qadınların maarifləndirilməsinə dəstək Nazlı Tahirovaya Bakıda Tağıyev qızlar məktəbinin ən yaxşı ideyalarını və təcrübəsini yaymağa kömək etdi.



1921-ci ildə o, bütün kişi rollarını da qızların özlərinin oynadıqları, Azərbaycanın məşhur dram əsərlərinin əksəriyyətinin tamaşaya qoyulduğu Naxçıvanda ilk özfəaliyyət qızlar teatrının təsis olunmasına müvəffəq oldu. Layiqli yüksəliş isə 1923-cü ildə Nazlı Tahirovanın on səkkiz ildən çox bir müddətdə bu vəzifəni tutduğu Pedaqoji (müəllimlərin hazırlığı) məktəbin müdirəsi vəzifəsinə təyin olunduğu vaxt baş verdi.

Lakin dərin kök salmış mövhumat heç də tezliklə aradan qalxmadı. Bu dövrdə Nazlı xanımın həyat yoldaşı Nəcəfqulu Nəcəfov onun maarifçilik ideyalarının həyata keçirilməsinə və hətta onun şəxsi mühafizəsinə dəstək göstərirdi. Gənc maarifçi cütlüyün prinsipiallığı öz müsbət nəticələrini verməyə başladı. Təhsil alan qızların sayı artmaqda idi. Məhz belə bir vaxtda Nazlı xanımın üzərinə digər bir ağır yük düşür. 1937-ci ildə o, sevdiyi həyat yoldaşını - Nəcəfqulu Nəcəfovu itirir. Bunun səbəbi, daha doğrusu, səbəblərindən biri də Nəcəfqulunun AXC ilə yaxınlıq göstərməsi, bir neçə dəfə İranda olması idi. Yaxşı, bəs Naxçıvanı yadeldən qurtarmaq üçün əlindən gələni etmək də günahdır?

Nazlı Nəcəfovanı ikinci dəfə öldürmək istəyirdilər. Bu dəfə basqın yox, repressiya maşını ilə. Şərqin ilk pianoçu qadını Xədicə Qayıbovanı, ”Köylüqızı” imzası ilə “Şərq qadını” qəzetində adını bilməyən qalmayan Gülarə Qədirbəyovanı, ilk çadra atanlardan Ayna Sultanovanı və Nazlı Nəcəfovanı saxladırlar. Nazlı Nəcəfova bu vaxtlar çox əziyyət çəkir, lakin, 29 minin içində canının sağ qalması onun ürəyinə bir az da olsa, su səpə bilir. Nəticədə, köylü qızı Gülarə Qədirbəyova, Ayna Sultanova, Xədicə Qayıbova kimi minlərlə qadınımız bu repressiyadan qurtula bilmirlər, lakin, Nazlı Nəcəfova öz canını burdan xilas edə bilir.

Xilas uzun sürmür. 5 il sonra Hüseyn Cavidin vəfatından çox kədərlənən Nazlı Nəcəfovanın bir kədərinə min kədər qatıldı. 1942-ci ildə Nazlı Nəcəfovaya çoxlu işgəncələr edərək Qazaxıstana sürgünə göndərirlər. Şiddətli soyuqda Nazlı Nəcəfova az qala öləcəkdi. Lakin, Allah üçüncü dəfə Nazlı Nəcəfovanı ölümdən saxladı.

Bir əmma da var idi ki, Nəcəfova nə vaxt doğma Naxçıvanını görəcək? O iş də həll olundu. 1954-cü ildə Nazlı Nəcəfova Naxçıvana gəldi, göz yaşlarını Araz çayına tökdü, böyük ayrılığı böyük səadətlə bitirib Naxçıvanını qucdu.

1957-cı ildə Nəcəfqulu bəyin güllələnməsinin 20 illiyində Nazlı xanıma bir kağız verdilər. Bu kağızda Nəcəfqulu Nəcəfovun bəraəti yazılmışdı. Nazlı Nəcəfova onu tutanlara qarğış yağdırdı, kağızı üzünə tutub göz yaşları ilə onu suladı. Artıq ömrünün son illəri olduğunu hiss etdi və həyatı bilinməz olmasın deyə, xatirə yazdı. Tağıyevin adının yasaq olduğu vaxtda xatirəsində ona önəmli yer verdi. Ancaq, polyak pianist Vladislav Şpilman öz xatirəsində almanları avstriyalı kimi qələmə almağa məcbur qaldı. Artıq Nəcəfqulu Nəcəfovun güllələnməsindən 40 il ötürdü. Nazlı Nəcəfova bu ayrılığa daha dözə bilmədi, dərin göz yaşları içində Naxçıvandakı evində bir daha hərəkət etməmək üzrə hərəkətsiz qaldı.

2000-ci ildə Nazlı Nəcəfova unudulmadı və onun anadan olmasının 110 illiyi böyük təntənə ilə qeyd olundu. İndi də mən öz kitabımda onu anıram və bunu şərəf bilirəm.

-

**15. 11. 2019.**

***2. Kaş ki, yavrum, son günlərin sevinci... - Nəcəfqulu Nəcəfovun həyatı və sevgisi.***

**Cəfər Cabbarlı.**

Qəminizə şərik olub, ərizənizin cavabında bildiririk ki, atanız Nəcəfov Nəcəfqulu Məşədi Məhəmmədhüseyn oğlu 1881-ci ildə anadan olmuşdur və 12 oktyabr 1937-ci ildə həbs edilmişdir. Azərbaycan SSR-in "NKVD" üçlüyünün 21 oktyabr 1937-ci il tarixli qərarına əsasən güllələnməyə məhkum edilmişdir və hökm həmin il noyabr ayının 29-da, Bakı şəhərində yerinə yetirilmişdir. Atanızın dəfn yeri haqqında heç bir sənəd yoxdur. Azərbaycan SSR Ali Məhkəməsi cinayət işləri üzrə məhkəmə kollegiyasının 18 avqust 1956-cı il tarixli qərarına əsasən atanıza bəraət verilmişdir. Əlavə edib Sizə bildiririk ki, 25 noyabr 1955-ci ildə bacınız Şəfiqə xanıma Naxçıvan DTK-i işçilərinin tərəfindən yalandan şifahi olaraq bildirilib ki, guya atanız 1941-ci ildə həbsxanada qan təzyiqindən vəfat etmişdir.

Milli Təhlükəsizlik Nazirliyindən (o vaxt adı dəyişilmişdi) Nəcəfqulu bəyin oğlu Namiq Nəcəfova göndərilmiş ərizə cavabı, 13 mart 1992-ci il.

Onun son günləri heç sevincli keçmədi ki, qısa və ya bietibar olsun.

Lakin, ürəyinə su səpən sevinc var idi, sevdiyi Nazlı xanımın güllələnməməsi. Özü güllələnəndə bu sevinc də bietibarlaşdı, qısalaşdı... O, buna layiq deyildi. Onun sayəsində Naxçıvan azad olmuşdu, ermənilərə qan udduran Nəcəfqulu Nəcəfov ermənilərin hazırladığı repressiya maşınından qurtula bilmədi. İnsanlıq cinayətinin dərəcəsinə bax ki, düz 20 il Nəcəfovlara bu barədə doğru xəbər göndərməyiblər. Olsun. Nəcəfqulu bəy və 29 min Azərbaycan Türkünün bəraət alması üçün gərək Stalin öləydi... Öldü də, nə oldu? Nəcəfqulu bəyin bəraəti ürəklərə su səpdimi... Bəraətdən çox Nəcəfqulu bəyin dirisini istəyirdi Nəcəfovlar... O da olmadı...



Nəcəfov Nəcəfqulu Məhəmmədhüseyn oğlu 1881-ci ildə Naxçıvanda anadan olub. O, ilk təhsilini Naxçıvanda alıb. Ailəsində bir çox yaxşı adamlar yetəcəkdi. Onlardan biri özü, digərləri isə qardaşları Əliqulu Nəcəfov (Qəmkusar) və Rzaqulu Nəcəf idi. Nəcəfqulu Culfa gömrükxanasında işləyir. İrandan gələn bir çox lazımsız şeyləri saxlatdırır və qanuna qarşı çalışanları həbs edir. 1907-ci ildən sonra Culfa gömrükxanasından çıxır və dövrün siyasət mərkəzində öz izini qoymaq üçün Heydər xan Əmioğlu ilə, Hümmət fraksiyası ilə əlaqədə olur. Vur deyiləndə vurur, vurma deyiləndə vurmur. İrana gedib burada da siyasəti təqib edir. Ərdəbildə də olur və dərin duyğu hissi ilə hər küçəsini, qarışını gəzir. Çünki, Ərdəbil Nəcəfovların kökünün başladığı bir yerdir. Nəcəfov burada bir çox siyasi işlər görür. Naxçıvana qayıtdıqdan sonra artıq ara qarışmışdı. Erməni itləri Naxçıvanda hürürdülər. Onlar Naxçıvan başda olmaqla bütün Azərbaycanı torpaqlarına qatmaq istəyirdilər. Araz Türk Cümhuriyyəti qurulduqdan sonra Nəcəfqulu artıq Vətən borcunu yerinə yetirmək istədi və son damla qanına qədər ermənilərlə vuruşdu. Dediyimiz kimi, ona Araz Türk Cümhuriyyəti, şəxsən də Yusif bəy Tahirov və kitabımda adını dəfələrlə çəkdiyim Əli Səbri Qasımov kömək etdilər. Məclisdə Əli Səbri Qasımov məruzə etdikdən sonra bir teleqram da göndərdi: “Biz belə hesab edirik ki, sonrakı və dəhşətli niyyətlərini həyata keçirmək üçün erməni hökuməti heç nə qarşısında dayanmayacaq və süni razılıqla hökumətimizin nəzərini öz çirkli əməllərindən yayındırmaqdır. Daşnak quldur dəstələrinin olduqları hər yerdə qan və tüstü, ümumi plana uyğun xarakterli zorakılıq... İclasın sədri Əli Səbri Qasımov, yerlilər cəmiyyətinin sədri Nəcəfqulu Nəcəfov, katib Hüseynzadə". Elə bu vaxtlarda da bir gözəl gördü. Onu çox sevdi, lakin, müharibə bu sevgiyə son qoymaq istəyirdi. Sonda müharibə bitdi. Ermənilər əzildilər və geri çəkildilər. Naxçıvan azad oldu, Nəcəfqulu qəhrəman. Yusif bəyin bu sevgidən xəbəri oldu və belə gözəl baharda Nəcəfqulu ilə sevdiyi nazlı gözəl - Nazlı xanım evləndilər. Bu evlilikdən onların Şəfiqə, Şulan və Namiq adlı övladları dünyaya gəldilər.

Tezliklə AXC ilə birlikdə ATC də dağıldı və yerinə ASSR və NMSSR yarandı. Nəcəfqulu 17 il təqib olundu. Özü üçün yox, Nazlı üçün, övladları üçün qorxdu... Sonra 1937-ci ilin oktyabrı, soyuq bir gecədə onu repressiya maşınına mindirdilər. Nəcəfqulu Nazlıya belə deyib Mircəfərin yanına doğru getdi: Sevgimizə yoxluq məzar olmasın...

Sonra Nəcəfqulunun ailəsinin xəbəri olmadan güllələdilər. 20 illik sevgi tarixçəsi belə yekunlaşdı...

Nazlı xanım isə 20 il sonra bəraət kağızını oxudu və ağlaya-ağlaya belə dedi: